# Qəhrəmanlığı ilə əbədiyyət qazanan vətənpərvər

**Qəhrəmanlıq barədə düşünəndə ilk olaraq gözlərimiz önündə pəhləvan cüssəli, qartal baxışlı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov canlanır. Göstərdiyi igidliyə, cəsarətə görə Mübariz xalqımızın qəhrəmanlıq simvoluna çevrilib. Hərbi xidmətə gedən çağırışçılar, orta məktəbdə oxuyan şagirdlər, gənclər, bir sözlə, hamı "Mübariz kimi qəhrəman olmaq istəyir".**

Sabahımızın gənclərindən, yeniyetmələrindən bu arzunu eşitmək çox qürurludur. Deməli, sabahımızın gəncləri cəsarətli olmağa, qəhrəman kimi böyüməyə can atırlar. Bu ruhda böyüyən, tərbiyə alan gənclik isə göstərəcəkləri qəhrəmanlıqları ilə xalqımızın başını hər yerdə və həmişə uca edəcəklər.

Təbiidir ki, Mübariz İbrahimov da bir günün, bir ayın içində qəhrəman olmayıb. Azərbaycan xalqının qəhrəmanı olmaq üçün o, 22 illik şərəf dolu ömür yaşayıb. Amma göstərdiyi igidliyi və qəhrəmanlığı ilə bu ömrü əbədiyaşar edib. Mübariz bu qəhrəmanlığı Vətənimizin işıqlı gələcəyi, əmin-amanlığı üçün göstərib. Bunun üçün canından keçib əbədiyyətə qovuşub. Bu gün Mübariz İbrahimovun şücaəti, igidliyi ilə xalqımız fəxr edib öyünür. Öyünürük ki, nə yaxşı onun kimi qürur duyduğumuz qəhrəmanımız var.

Qəhrəmanlıq zirvəsinə yüksələnə qədər Mübariz sadə bir ömür yaşamışdı. Üzləşdiyi bir çox çətinlikdən alnıaçıq, başıuca çıxmışdı. Gələcəyin qəhrəmanı Mübariz Ağakərim oğlu İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində dünyaya göz açmışdı. Orta təhsilini də elə 1994-2005-ci illərdə qoynunda doğulduğu bu kənddə almışdı. Təhsilini başa vurandan bir il sonra yaşıdları ilə bərabər böyük həvəslə, odlu-alovlu arzularla hərbi xidmətə yollanmışdı. Qismətinə Daxili Qoşunların "N" saylı hərbi hissəsində xidmət etmək düşmüşdü. Mübariz bundan çox məmnun olmuşdu. Hərbi hissənin xüsusi təyinatlı bölüyündə Vətən qarşısındakı övladlıq borcunu layiqincə yerinə yetirən əsgər İbrahimov silahların sirrini dərindən öyrənir, məşqlərdən, təlimlərdən yorulmurdu. Elə buna görə də yüksək hərbi bilikləri və döyüş vərdişləri qazanmışdı.

Mübariz İbrahimov 2007-ci ildə çavuş rütbəsində əsgəri xidmətini başa vurub doğmalarının yanına qayıtdı. Hansı işdə olsa da, harada çalışsa da, onun fikri orduda, cəbhə bölgəsində, səngərlərdə qalmışdı. Hərbi xidmət ahənrüba kimi onu özünə çəkirdi. Nəhayət, 2009-cu ildə Mübariz ürəyində alovlanan arzusunu həyata keçirmək üçün müvafiq quruma müraciət etdi və ordu sıralarında xidmətə başladı. Arzusuna çatdığına, istəyinə yetişdiyinə görə Mübariz rahatlıq tapmışdı. Artıq əyninə hərbi uniforma geyinərək gizir rütbəsində cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət edirdi. Beləcə, keçən hər günü onu qəhrəmanlıq zirvəsinə yaxınlaşdırırdı.

Arzuladığı həmin gün isə bir ildən sonra onun həyatına qədəm qoydu. 2010-cu il iyun ayının 18-dən 19-na keçən gecə saat 23:30 radələrində heç kimə xəbər vermədən düşmən üzərinə gedən Mübariz İbrahimov görünməmiş qəhrəmanlıq göstərdi. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilmədən birinci həmlədə məhv etdi, sonra isə düşmənin öz silahlarını özünə qarşı çevirərək uzun müddət onlarla təkbətək vuruşdu və bu qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid oldu.

Mübariz cəsarəti və hünəri ilə həm də adını doğrultdu. O, bu cəsurluğu ilə mübarizliyin, qəhrəmanlığın, igidliyin əbədi düsturunu yaratdı. Gələcək nəsillər üçün qəhrəmanlığa, igidliyə gedən geniş yol açdı. Mübariz hünəri və rəşadəti ilə onun üçün Vətənin hər şeydən üstün, hər şeydən dəyərli olduğunu sübut etdi.

Mübariz təkbaşına düşmən üzərinə getməzdən əvvəl valideynlərinə bu məzmunda bir məktub yazmışdı: "Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".



Prezident İlham Əliyev qəhrəmanın vida mərasimində çıxış edərkən onun igidliyini yüksək qiymətləndirərək demişdir: "Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir... Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar vardır... Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir".

Mübariz İbrahimovun Vətən uğrunda, torpaqlarımızın azadlığı uğrunda göstərdiyi qəhrəmanlıq, igidlik yüksək qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2010-cu il tarixli sərəncamı ilə gizir Mübariz Ağakərim



oğlu İbrahimova Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyünün qorunmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verildi.

44 günlük Vətən müharibəsində zabit və əsgərlərimiz Qarabağ uğrunda gedən döyüşlərdə böyük igidlik və qəhrəmanlıq göstərərək torpaqlarımızı işğaldan azad etdilər. İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə cəbhədən verilən məlumatlardan öyrəndik ki, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyun ayının 18-dən 19-na keçən gecə ermənilərlə təkbaşına vuruşduğu və şəhid olduğu post da erməni işğalçılarından azad olunub. Verilən məlumatda o da vurğulanırdı ki, bu mövqe uğrunda nə az, nə çox düz yeddi saat qanlı döyüş gedib. Axır ki, düşmən güclü zərbələrlə məhv edilib, bu post yağı tapdağından azad olunub.

Bu xəbər hamımızı sevindirdi, qürurlandırdı. Yəqin ki, bu şad xəbərdən Mübariz İbrahimovun göylərdə narahatcasına dolaşan ruhu da rahatlıq tapdı. 2010-cu ilin isti yay günlərində xalqımızın qeyrətli oğlu Mübariz bu istiqamətdən düşmən üzərinə heç nədən və heç kimdən qorxub çəkinmədən təkbaşına şığımışdı. Getmişdi ki, işğalçıları məhv etsin, onlara Azərbaycan əsgərinin gücünü, qüdrətini göstərsin, şəhidlərimizin qisasını alsın. Necə lazımdırsa, gücünü göstərmişdi, cəsur bir Azərbaycan oğlu olduğunu sübut etmişdi. Mübariz İbrahimov bu cəsarətli addımı ilə qəhrəmanlıq tariximizdə yeni səhifələr açmışdı. Ondan sonra neçə-neçə cəsur oğullarımız açdığı bu yolu elə onun kimi də şərəflə davam etdirmişdilər.

Mübariz qəsbkarlarla son damla qanı qalanadək döyüşməyi qarşısına məqsəd qoymuşdu. Cəsarəti və hünəri ilə buna nail olarq ölümə də, düşmənə də qalib gəldi. Mübariz İbrahimovun yarımçıq qalmış döyüş yolunu onun ardıcılları həmin postdan üzü Qarabağa, Şuşaya tərəf davam etdirmişdi, adına layiq hünər və igidlik göstərmişdilər. Mübarizin şəhid olduğu yerdə qürur duya-duya, sevinə-sevinə üçrəngli bayrağımızı yüksəltmişdilər. Qəhrəmanı, qəhrəmanlığı yaşatmışdılar.

"Mübariz postu"nun azad olunmasını özündə əks etdirən qürurverici kadrlara baxdıqca Müzəffər Ali Baş Komandanla, Azərbaycan Ordusu Azərbaycan əsgəri ilə fəxr edirsən. Doğrudan da, 44 günlük Vətən müharibəsinin davam etdiyi günlərdə ordumuzun zabit və əsgərləri yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə hünərlə vuruşdular, qəhrəmana, qəhrəmanlığa şan-şöhrət gətirdilər.

Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə, doğulub boya-başa çatdığı Biləsuvar rayonunda lisey kompleksinə və küçələrdən birinə onun adı verilib. İndi Əliabad kəndi Mübarizin kəndi adlandırılır. Milli Qəhrəmanın ata evinin həyətində onun ev-muzeyi tikilib. Bura gələnlər Vətənin igid oğlundan xatirə qalmış əşyalarla, fotoguşəylə yaxından tanış olur, onun əziz xatirəsinə sonsuz ehtiramlarını bildirirlər.

Mübariz İbrahimovun İkinci Şəhidlər xiyabanındakı məzarı yaşından asılı olmayaraq, böyükdən-kiçiyə hamının ziyarətgahına çevrilib. Onun qəbri üstünə gül dəstələri qoyan gənclər gələcəkdə belə bir qəhrəman olacaqlarına and içir, xatirəsini hörmət və ehtiramla yad edirlər. Azərbaycan xalqının Milli Qəhrəmanı Mübariz İbrahimova olan ehtiramı, saygısı sonsuzdur, əbədi-əzəlidir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***